# Azərbaycanın davamlı inkişafı üçün əsas bazisə çevrilən ideya...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

**Müasir dövrdə qlobal miqyasda qeydə alınan çoxsaylı problemlər fonunda hər bir dövlət, o cümlədən Azərbaycan üçün ən vacib məsələlərdən biri inkişafın sonrakı vektorunun doğru seçilməsi məsələsidir ki, bu da geridə qalan tarixi, azərbaycançılıq milli ideyasını dərindən öyrənmədən müəyyən edilə bilməz.**



Yaşadığımız əsrdə Baş verən qlobal dəyişikliklər, bisr sıra istiqamətlər üzrə bəşəriyyət üçün qaçılmaz görünən fəlakət təhlükəsi, əsrlər boyu Azərbaycanı parçalamaqla məhv etmək üçün bədxah planlar quran Ermənistanın təcavüzkar milli-radikal ünsürlərinin davam edən düşmənçiliyi azərbaycançılıq milli ideyasının dünya azərbaycanlılalrı arasında daha sürətlə yayılmasını zərurətə çevirir. Çünki bu, müstəqil Azərbaycanın, dünya azərbaycanlılarının xilas yoludur.

**Qarabağda qalan ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyası azərbaycançılıq ideyası sayəsində daha asan olacaq**

Geosiyasi amillərlə yanaşı, bu mövzu həm də Azərbaycanın daxili siyasi vəziyyəti ilə bağlı olaraq da aktualdır. Çünki ölkə daxilində hələ də 5-ci kolon vasitəsilə Azərbaycanı bir dövlət olaraq məhv etmək istəyənlər var. Onların azərbaycançılıq ideyasına total hücumu bu gün də davam edir.

İstənilən milli ideyanın əsasını etnoqrafik vəziyyət fonunda insanların konkret etnik qrupa mənsubiyyətini dərk etməsi, özünüidentifikasiyası təşkil edir. Bu zaman ümumi ərazi, dil, inanc, tarix, mədəniyyət, psixologiya, eləcə də Yer üzündə mövcudluğun ümumi məqsədi və mənasını dərk etmək kimi məqamlar ön planda yer alır. İlkin olaraq şüurda obraz və hiss təcrübəsi şəklində yaranan milli ideya təfəkkür qanunlarının fəaliyyəti ilə tədricən sabit baxışlar sisteminə çevrilir: dini, əxlaqi, estetik, siyasi və nəhayət, hüquqi müstəvidə spesifik dünyagörüşünə çevrilir. Milli ideyanın daha yüksək mərhələsi isə ideologiyadır. Onun məqsədi öz Vətənini milli dövlətin əsaslarına qarşı hər hansı düşmən cəhdindən qorumaqdır. Milli ideya milli müstəsnalığın təbliğində və başqa xalqlara qarşı ayrı-seçkiliyin təbliğində təzahür edən millətçiliklə eyni deyil. O, Yer üzündə yaşayan bütün xalqların bərabərliyini tanıyır. Azərbaycançılıq milli ideyası də məhz belədir. Bu ideyanın dərk olunması əsasında Azərbaycan millətinin tarixi, mənəvi-əxlaqi və mədəni əlaqələri zəminində birlik ideyası durur. Heç şübhəsiz ki, bu, nəinki indi, həm də qarşıdakı dövr ərzində azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcək və müstəqillik, milli eyniyyət həmin nəsillər üçün layiqli həyatının və şəxsi azadlığının ayrılmaz atributlarına çevriləcək. Deməli, azərbaycançılıq ideyası Azərbaycanın sonrakı inkişafı üçün də əsas bazis kimi qəbul edilməlidir və edilir də. Burada diqqət yetrilməsi vacib olan daha bir məqam budur ki, azərbaycançılıq ideyası davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Çünki azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanır. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır. İndiki halda bu ideya ikinci Qarabağ müharibəsindən sonra Qarabağda qalan erminilərin Azərbaycan cəmiyyətinə inteqrasiyasının da əsas ideoloji xətti kimi çıxış edə bilər. Əslində, Qarabağda qalan ermənilərin inteqrasiyası baxımından onlar arasında azərbaycançılıq ideyasının geniş təbliğinə ciddi zərurət var.

**Azərbaycançılıq ideyası erməni şovinizmi və millətçiliyinə qarşı**

Təəssüf ki, Vətən müharibəsindən iki ilə yaxın vaxt keçməsinə baxmayaraq, Qarabağda qalan ermənilərin Azərbaycan vətəndaşları kimi cəmiyyətimizə inteqrasiyası ləngiyir. Bunun ümdə səbəblərindən biri onların şovinizm, millətçilik ideyası ilə "zəhərlənməsidir". İndi onları bundan xilas etmək lazımdır və bu məsələdə azərbaycançılıq ideyasının böyük rol oynayacağı şübhəsizdir.

Əslində, ermənilər getdikcə daha yaxşı görürlər ki, Azərbaycanda çox sayda milli azlıqlar bütün vətəndaş hüquqlarından tam şəkildə və maneəsiz istifadə edirlər. Bu şəraitdə Qarabağda qalan ermənilərin Azərbaycan cəmiyyətinə azərbaycançılıq ideyasını qəbul etməklə intqrasiyası onların xilas yoludur. İndilikdə isə erməni millətçiliyi, ermənilərin digər xalqlara qarşı aqressivliyi sərhəd tanımır. Bunun nəticəsidir ki, bu gün Ermənistan əhalisi, demək olar, 100 faiz yalnız ermənilərdən ibarətdir. Bu gün Ermənistan, ölkənin hakim dairələri, erməni lobbisi əməlləri bəşəriyyətə sübut edirlər ki, onların ideologiyası erməni xalqını uçuruma aparır. Demoqrafik, sosial- iqtisadi cəhətdən zəif, cüzi potensiala malik olan Ermənistan indiki ideologiyası ilə avantürist məqsədlərinin heç birinə çata bilməz. Əksinə, o, özünü getdikcə daha böyük bataqlığa salır. Millətçilik xəstəliyinə tutulanların nəinki Qarabağda qalan ermənilərə, elə ermənistanın özünə heç bir faydası yoxdur. Bunu Qarabağda qalan ermənilər də yaxşı bilirlər. Elə o səbəbdən onların azərbaycançılıq ideyasını qəbul edib Azərbaycan cəmiyyətinə inteqrasiyası Qarabağda qalan ermənilərin yeganə xilas yoludur. Çünki müstəqil dövlətə, aydın düşüncəyə, davamlı inkişaf edən iqtisadiyyata, sabitliyə, düşdüyü ağır vəziyyətdən çıxmağa və xalqı bəlalardan qurtarmağa qadir olmayan Ermənistan dövlətinin sabahı təhlükəlidir. Ermənistanda inkişaf edən yalnız millətçilik ideologiyası və bunun sayəsində bəzi erməni rəhbərlərin varlanması, öz xalqına qəsd etməsidir. Bu şəraitdə Qarabağ ermənilərinin Ermənistana bağlı heç bir ümidləri də yoxdur. Deməli, onlar üçün yeganə xilas yolu Azərbaycan vətəndaşları kimi həyatlarını davam etdirməkdir. Azərbaycan bunun üçün bütün lazımi şəraiti yaratmağa hazırdır. Bura təkcə siyasi, sosial-iqtisadi aspektlər yox, ideoloji əsaslar da daxildir. Bu ideoloji əsasın kökündə də məhz azərbaycançılıq ideyası dayanır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**